**"TƏSDİQ EDİRƏM"**

**Naxçıvan Dövlət Universitetinin rektoru**

**__________________dos. E.S.İsayev**

**“___”  ___________ 2025-ci il**

# PUBLİK HÜQUQİ ŞƏXS STATUSUNA MALİK NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN

# AKADEMİK HEYƏT VƏ TƏLƏBƏ MÜBADİLƏ STRATEGİYASI

**Naxçıvan 2025**

Bu sənəd, tələbə mübadilə proqramlarının həyata keçirilməsi və inkişaf etdirilməsi üçün strateji bir yol xəritəsi təqdim etmək məqsədini daşıyır. Təhsil sahəsində beynəlxalq mübadilə, tələbələrin fərqli mədəniyyətlərlə tanış olmalarını, qlobal perspektivlər qazanmalarını və akademik biliklərini genişləndirmələrini təmin edən mühüm bir vasitədir. Bu strategiya sənədi, tələbə mübadiləsi proqramlarının effektiv şəkildə idarə olunması, tələbələrin mübadilə təcrübəsindən maksimum fayda əldə etmələri və proqramların uzunmüddətli təsirinin artırılması üçün təklif olunan əsas istiqamətləri müəyyən edir.

Sənəd, beynəlxalq təhsil mübadiləsinin yalnız akademik inkişafı deyil, eyni zamanda tələbələrin sosial, mədəni və şəxsi bacarıqlarını inkişaf etdirmə potensialını da nəzərə alır. Tələbələrin müxtəlif ölkələrdə təhsil alması, onların qlobal dünyada qarşılaşdıqları çətinliklərə qarşı daha hazırlıqlı olmalarına, çoxmədəniyyətli ortamlarda işləmək bacarıqlarını artırmalarına və fərqli dünyagörüşləri ilə zənginləşmələrinə şərait yaradır.

Mübadilə fəaliyyətinin məqsədləri beynəlmiləlləşmə siyasəti və Strateji inkişaf planında əks olunub. Sənəd Naxçıvan Dövlət Universiteti rəhbər heyətinin rəy və təklifləri nəzərə alınmaqla tərtib olunub və "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na, Naxçıvan Dövlət Universiteti 2023-2027-ci illər üzrə Strateji İnkişaf Planına və Naxçıvan Dövlət Universitetinin Beynəlmiləlləşmə Siyasəti sənədinə əsaslanaraq hazırlanıb. Bu sənəd aşağıdakı strateji hədəfləri özündə əks etdirir:

**Məqsəd 1. Beynəlxalq təcrübə və bilik mübadiləsi**

Universitetlərarası beynəlxalq təcrübə və bilik mübadiləsi, qlobal təhsil sisteminin ən vacib elementlərindən biridir. Bu mübadilə, müxtəlif ölkələrdən və mədəniyyətlərdən olan tələbələr və akademik mütəxəssislər arasında qarşılıqlı əlaqələr qurmağa, elmi araşdırmaların və tədrisin sərhədlərini genişləndirməyə imkan verir. Eyni zamanda, beynəlxalq əməkdaşlıq tələbələrə fərqli təhsil yanaşmalarını və metodologiyaları öyrənmək imkanı tanıyır.

**Hədəf 1. Mübadilə proqramlarının effektiv təşkili**

**1.1.1** Tələbələrin və Akademik Heyətin Beynəlxalq Təcrübəsi: Mübadiləçiyə müxtəlif mədəniyyətləri daha yaxından tanıtmaq və qlobal təhsil mühitində iştirak etmək imkanı yaratmaq;

**1.1.2** Akademik Əməkdaşlıq: Beynəlxalq universitetlərlə əməkdaşlıq qurmaq və akademik mübadilə, ortaq tədqiqatlar və layihələr üçün yeni imkanlar yaratmaq;

**Məqsəd 2. Mübadilə proqramının hüquqi, inzibati və akademik əsaslarının müəyyənləşdirilməsi**

Mübadilə proqramlarının təşkili və uğurlu həyata keçirilməsi düzgün və funksional strukturun qurulmasından asılıdır. Bu struktur tələbələrin seçimi, tərəfdaş universitetlərlə razılaşmalar, akademik uyğunluq, kreditlərin tanınması, maliyyə və inzibati məsələləri əhatə etməlidir. Universitet daxilində müvafiq şöbələrin — xüsusilə beynəlxalq əlaqələr şöbəsinin və akademik rəhbərliyin koordinasiyalı fəaliyyəti bu strukturun effektiv işləməsində mühüm rol oynayır. Bu baxımdan, mübadilə proqramının qurulması sadəcə texniki bir proses deyil, eyni zamanda strateji yanaşma tələb edən kompleks bir fəaliyyət sahəsidir.

**Hədəf 1**. **Proqramının strukturunun qurulması**

Tələbə və müəllim mübadilə proqramları aşağıdakı strukturlarda təşkil ediləcək:

**2.1.1**. Proqramın Təşkilatçılığı və İdarə Edilməsi

**2.1.2.** Təşkilatçı Şöbə: Proqramın ümumi təşkili və əlaqələndirilməsi Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən həyata keçiriləcək;

**2.1.3.** Proqramın Seçimi və Koordinasiyası: Mübadiləçi müxtəlif akademik və mədəni şərtləri nəzərə alaraq mübadilə proqramına qatılmaq üçün müraciət edəcək. Seçim prosesi Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 yanvar 2024-cü il tarixdə 06 № 6-li “Mübadilədə iştirak edəcək tələbələrin, akademik və inzibati heyətin namizədlik və seçim kriteriyaları və seçki komissiyasının tərkibi” şəffaf və obyektiv şəkildə həyata keçiriləcək;

**Hədəf 2**. **Mübadilə Proqramlarının növlərinin müəyyənləşdirilməsi**

**2.2.1.** Tələbə Mübadilə Proqramları: Tələbə mübadilə proqramları, tələbələrin müəyyən bir müddət ərzində xarici universitetlərdə təhsil almaq və yeni təcrübələr qazanmaq üçün iştirak etdiyi proqramlar (Erasmus Plus, Orhun və s. );

**2.2.2.** Peşəkar Tədqiqatçı və Akademik Mübadilə Proqramları: Tədqiqatçıların və akademiklərin müxtəlif ölkələrdə və ya təşkilatlarda fəaliyyətlərini

genişləndirmələrinə kömək edən, təcrübəli mütəxəssislər üçün yeni ideyalar və metodlar əldə etməyə imkan verən proqramlar;

**Məqsəd 3. Mübadilə Proqramlarına Seçim Kriteriyalarının müəyyənləşdirilməsi**

Mübadilə proqramlarına seçilərkən əsasən mübadiləçinin akademik uğurları, dil bilikləri, mədəniyyətlərarası adaptasiya bacarıqları və fərdi motivasiyası qiymətləndirilir. Mübadilə proqramlarına seçim kriteriyalarının təhsilin inkişafına təsiri böyükdür. Bu yalnız fərdi inkişafları deyil, həm də təhsil sahəsindəki müsbət dəyişiklikləri dəstəkləyir və qlobal təhsil mühitində yeni imkanlar yaradırlar. Bu isə təhsil sistemlərinin müasir dövrə uyğun inkişaf etməsinə və daha inklüziv, müasir təhsil yanaşmalarının qlobal səviyyədə təbliğinə və tətbiqinə kömək edir.

**Hədəf. Proqramın Seçim Kriteriyalarını hazırlamaq**

Proqramın uğurlu həyata keçirilməsi üçün namizədlər aşağıdakı meyarlara uyğun olaraq seçiləcək:

**a)** Akademik Nəticələr: Tələbələrin akademik göstəriciləri (70 GPA) və müvafiq sahədəki bilikləri, akademik heyətin isə tam ştatlı işçi olmaqla elmi göstəricilərinin sayı nəzərə alınacaq;

**b)** Dil Bacarıqları: Mübadilə proqramına qatılmaq üçün tələb olunan dil bilikləri: (məsələn, ingilis dili və ya müvafiq proqramın tədris dilində) IELTS 6 və ya komissiya rəyi;

**c)** Təcrübə və Hədəflər: Mübadilə proqramları iştirakçılarının Təhsil və Akademik Təcrübə baxımından mübadilə proqramından gözlədiyi faydalar və gələcək karyera məqsədləri proqramın seçilməsində əsas rol oynayacaq;

**d)** Müraciət və Seçim Prosesləri: İştirakçıların seçimi üçün müsahibə və digər qiymətləndirmə vasitələri tətbiq ediləcək;

**Məqsəd 4. Mübadilə proqramlarının icra prosesinə təşkilati və logistik dəstəyin göstərilməsi**

Mübadilə proqramlarının icrası zamanı təşkilati və logistik dəstəyin təmin edilməsi son dərəcə vacibdir. Təşkilati dəstək, proqramın planlaşdırılması, iştirakçıların seçilməsi və təlimlərin keçirilməsi kimi əsas mərhələləri əhatə edir. Bu prosesdə, həmçinin proqramın məqsəd və hədəflərinə uyğun olaraq, hər bir iştirakçının

ehtiyaclarına uyğun xidmətlər təklif edilərək və əlaqələr düzgün şəkildə qurulur. Logistik dəstək isə, proqram iştirakçılarının səyahətinin təşkili, qalma yerləri və gündəlik fəaliyyətlərinin planlaşdırılması kimi bir çox vacib detalları əhatə edir.

**Hədəf. Proqramın İcrası və Dəstəklənməsi**

**a)** Əlaqə və Koordinasiya: Proqramın təşkilatçıları, iştirakçılar və digər maraqlı tərəflərlə daimi əlaqə saxlayaraq proqramın hər bir mərhələsinin düzgün şəkildə keçirilməsini təmin edir. İştirakçıların qeydiyyatı, məlumatlandırılması və sorğuları ilə məşğul olur.

**b)** Təlim və Orientasiya: Proqrama qəbul olunan mübadiləçi üçün təlim və orientasiya sessiyaları təşkil edilir. Bu sessiyalar xüsusilə tələbələrə yeni təhsil sistemi, mədəniyyətlərarası münasibətlər və yaşayış qaydaları haqqında məlumat verir.

**c)** Viza və Səyahət Yardımı: İştirakçılara səyahət və viza prosesində dəstək göstəriləcək. Beynəlxalq Əlaqələr Şöbəsi bu prosesləri asanlaşdıracaq və tələbələrin sənəd işlərini düzgün şəkildə yerinə yetirmələrini təmin edəcək.

**d)** Yaşayış və Mənzil Dəstəyi: Mübadilə tələbələri üçün universitetlərin yataqxanaları ilə əlaqə yaradılaraq yaşayış təmin edilərək, tələbələrə uyğun və rahat yataqxana tapmaq üçün kömək ediləcək.

**Məqsəd 5. Mübadilə proqramlarının tətbiqi və monitorinqi**

Mübadilə proqramlarının effektivliyini ölçmək üçün izləmə və qiymətləndirmə mexanizmləri həyata keçirilir. İştirakçılara, proqramın əvvəlində və sonunda sorğular və müsahibələr təşkil edilir. Bu proses onların inkişafını və proqramın təsirini qiymətləndirməyə kömək edir.

**Hədəf. Monitorinq və Qiymətləndirmə**

Proqramın davamlı inkişafını təmin etmək üçün mübadilə proqramları daimi olaraq qiymətləndirilir:

**a)** Tələbə geridönüşü və Rəyləri: Proqramın sonunda sorğu vasitəsilə tələbələrdən geri bildirim alınır və onların təcrübələri, mədəniyyətlərarası əlaqələri və akademik inkişafları təhlil edilir;

**b)** Akademik Uğurlar və Performans İzləmə: İştirakçıların proqram boyunca göstərdikləri akademik performansı izlənilir və mübadilə proqramlarının onların təhsilinə təsiri qiymətləndirilir;

**c)** Proqramın Effektivliyi: Mübadilə proqramlarının ümumi uğuru tərəfdaş universitetlərdən alınan rəylər və iştirakçı tələbələrin karyera inkişafları əsasında qiymətləndirilir;

**d)** Nəticələrin Yayımlanması: Mübadilə proqramlarının nəticələri və əldə olunan uğurlar həm iştirakçılara, həm də digər maraqlı tərəflərlə paylaşıma açıqdır. Bu məlumatlar proqramın növbəti illər üçün inkişafını təmin etmək üçün istifadə olunur;